# MİR MEHDİ XƏZANİNİN "KİTABİ-TARİXİ-QARABAĞ" ƏSƏRİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏDQİQİ TARİXİNDƏN

**Samir HƏSƏNOV**
Lənkəran Dövlət Universiteti
Lənkəran / AZƏRBAYCAN
*sami_hasan@mynet.com*

**XÜLASƏ**

XIX əsr Azərbaycan tarixşünaslığı üçün böyük əhəmiyyət kəsb edən mənbələrdən biri Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əseridir. Aktual bir problem olan Qarabağ məsələsində erməni tarixçilərinin iddialarını puça çıxartmaq üçün Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsərinin araşdırılması əhəmiyyətlidir. Bunları nəzərə alaraq əsərə müraciət etməyi özümüzə borc bildik.

Məqalədə Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsərinin tədqiqi tarixindən söhbət açılır. Sadə Azərbaycan dilində yazılmış "Kitabi –Tarixi-Qarabağ" əsəri sadəcə Qarabağın deyil, ümumilikdə Azərbaycanın xanlıqlar dövrü üçün mühüm bir mənbədir. Bundan əlavə "Kitabi –Tarixi-Qarabağ" əsərində elə maraqlı məlumatlar və faktlar var ki , digər "Qarabağnamələr"də buna təsadüf olunmur . Ən əsası isə bu əsərdə erməni tarixçilərin iddialarının əsassız olduğunu sübut edəcək dəlillər çoxdur.

**Açar sözlər:** Mir Mehdi Xəzani, Qarabağ, erməni iddiaları, tarixi həqiqətlər.

## FROM THE HISTORY OF RESEARCH OF "KİTABİ-TARİXİ-QARABAĞ" BY MIR MEHDI KHAZANI

**ABSTRACT**

One of the significant references (sources) for 19th century Azerbaijan history is "Kitabi-Tarixi-Qarabağ" ("The book of history of Karabakh") by Mir Mehdi Khazani. It is important to do research on this book in order to disprove the false claims of the armenian historians about the current Karabakh problem. Considering these we thought the research of the book as a duty.

This article is about the history of research of "The book of history of Karabakh" by Mir Mehdi Khazani. This work is written in pure azerbaijanin and is an important source for the khans period of not only Karabakh region but also the whole county Azerbaijan. Furthermore, there are some interesting points and facts in "The book of history of Karabakh" which are not mentioned in any other "Karabakhnama" (books of the history of Karabakh). The most important aspect of the book is that, it includes many points disproving the false claims of armenian historians.

**Key words:** Mir Mehdi Khazani, Karabakh, the false armenian claims, historical truths.

Tarixi tədqiqatın əsasını təşkil edən mənbələrin öyrənilməsi tarixçilərin qarşısında duran zəruri bir vəzifədir. Mənbələrdə olan məlumat müəyyən dövrün ictimai – iqtisadi, siyasi və mədəni həyatı ilə əlaqəli surətdə, başqa mənbə və faktlarla müqayisəli şəkildə araşdırılmalıdır, çünki "Mənbəşünaslıq tarixi mənbələr, onların aşkar

olunması, öyrənilməsi və tarixçinin əsərində istifadə edilməsi haqqında elmdir".[1]

Azərbaycanın XVIII-XIX əsrlər tarixini tədqiq etmək üçün çoxlu mənbələr vardır.Bu mənbələr içərisində böyük əhəmiyyət kəsb edən əsərlərdən biri Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsəridir. Əsərin adı zahirən onun ancaq Qarabağ tarixinə aid olduğu təsəvvürünü verirsə də, həqiqətdə bu əsəri belə məhdud hesab etmək səhv olardı. Qeyd etdiyimiz əsərdə Qarabağ ilə əlaqədar Zaqafqaziyanın bəzi hissələrinin, o cümlədən Gürcüstan, İrəvan, Şəki, Gəncə, Naxçıvan və Car – Balakənin tarixinə aid çoxlu qiymətli məlumat vardır. Birinci və İkinci Rus – İran müharibələrini və Zaqafqaziyanın, o cümlədən Azərbaycanın Rusiya tərəfindən işğalı tarixini öyrənmək nöqteyi nəzərindən, digər "Qarabağnamə"lər kimi, Xəzaninin əsəri də müəyyən qiymətə malikdir. Günümüzün ən aktual məsələlərindən biri olan Qarabağ məsələsində tarixçilərimizə erməni iddialarının əssasız olduğunu sübüta yetirmək üçün böyük əhəmiyyət kəsb edən "Kitabi-Tarixi-Qarabağ" əsəri müstəqil bir tədqiqat obyekti kimi tədqiq edilməmişdir.

Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsərini ilk dəfə tədqiq edən Həsən İmanovdur. Azərbaycan tarixşünaslığına həsr olunmuş bir məqaləsində H.İmanov Xəzaninin öz əsərini Mirzə Adıgözəlbəy və Mirzə Camalın "Qarabağnamə"lərindən köçürüb yazdığını bildirir və əsərin əhəmiyyətsiz olduğunu qeyd edir.[2] H.İmanov bu üç əsəri müqayisəli sürətdə gözdən keçirmədiyindən, ancaq Xəzaninin müqəddiməsindəki qeydə və hadisələrin oxşarlığına görə belə yanlış bir qərara gəlmişdir.

Məşhur rus tarixçisi və tədqiqatçısı V.N. Leviatov da Xəzaninin əsərindən bir mənbə kimi istifadə etmiş,[3] lakin Azərbaycan dilində yazılmış "Kitabi-Tarixi-Qarabağ" əsərini düzgün təhlil edə bilməmişdir. Buna baxmayaraq Leviatov 1948-ci ildə çap etdirdiyi "Очерки из истории Азербайджана в XVIII веке" adlı əsərində Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsərinə tez-tez müraciət etmiş, Qarabağın təsərrüfat həyatı[4] və Şuşa qalasının salınması[5] haqqında verdiyi məlumatlarını Xəzaninin tarixindən istifadə edərək yazmışdır.

V.N. Leviatov Mirzə Adıgözəlbəyin "Qarabağnamə"sinə müqəddimə yazarkən Xəzaninin tarixindən bəhs edərək yazır: "Mirzə Adıgözəlbəydən sonra Qarabağın tarixini yazan Mir Mehdi Xəzani əsərinin birinci fəslini Qarabağın coğrafiyasının və sərhədlərinin təsvirinə həsr etmiş, bununla da Mirzə Adıgözəlbəyin əsərində qalmış boşluğu qismən də olsa doldurmuşdur.[6] Leviatov Mirzə Adgözəlbəydən sonra Qarabağın tarixinin Mir Mehdi Xəzani tərəfindən yazıldığını qeyd edir. Bu iddia da yanlışdır. Çünki, Mirzə Adıgözəlbəydən sonra Qarabağ tarixini yazan Mirzə Camal, Qarabağ coğrafiyasına aid ilk məlumat da vermişdir. Mir Mehdi Xəzani isə Mirzə Camalın izi ilə

---

[1] Источниковедение .Теоретические и методические проблемы, Москва 1969. səh 14.

[2] Г.Иманов "Вопросы историографии Азербайджана". "Наука в АССР за 15 лет". Баку 1936. səh. 161

[3] В.Н.Левиатов . "Очерки из истории Азербайджана в XVIII веке" Баку 1948. səh 8.

[4] Yenə orada. səh. 8

[5] Yenə orada. səh. 127.

[6] V.N.Leviatov. Müqəddimə. (bax. Mirzə Adıgözəlbəy. "Qarabağnamə"). "Qarabağnamələr". Birinci kitab. Bakı 1989. səh 27.

getmişdir. Xəzaninin əsəri bəzi nüsxələrdə "Asarül-Camal" adı daşıyır ki, bu da onun daha çox Mirzə Camal təsirində yazdığına dəlildir.[7] Təsadüfi deyil ki, Mir Mehdi Xəzani öz əsərinin ilk variantını "Asarül-Camal" adlandırmışdır[8] və əsərin adında olduğu kimi məzmunu və fəsilləri də Mirzə Camalın əsərinə bənzəyir.

V.N. Leviatovdan sonra üzün müddət AMEA Əlyazmalar institutunun fondunda olan "Kitabi-Tarixi-Qarabağ" əsərinin əlyazmalarından isifadə edən olmamışdır. Həm Azərbaycan, həm də xarici ölkə tarixçiləri Azərbaycanın xanlıqlar dövrü tarixinə müracit edərkən daha çox Mirzə Adıgözəlbəyin və Mirzə Camal Cavanşirin "Qarabağnamə"lərindən istifadə etmişlər.

Fikrimizcə, bunun əsas iki səbəbi ola bilər. Birincisi, uzun müddət tarixçilər "Kitabi-Tarixi- Qarabağ" əsərinin Mirzə Adıgözəlbəyin və Mirzə Camalın əsəri ilə eyni olduğunu düşünmüş, onların arasındakı fərqli cəhətlərin ola biləcəyini düşünməyərək bu əsərə müraciət etməmişlər.

İkincisi isə əsər üzün müddət çap olunmadığından əlyazmalar şəklində qalmışdır və tarixçilərin bəlkə də bu əsərin varlığından belə xəbərləri olmamışdır.

Lakin, Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsərinə ilk dəfə düzgün qiymət verən tarixşünas alim Əli Hüseynzadə olmuşdur. Ə.Hüseynzadə 1967-ci ildə çap etdirdiyi "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" adlı kitabında Mir Mehdi Xəzaninin həyatı və tarixi əsəri olan "Kitabi-Tarixi -Qarabağ" haqqında geniş məlumat vermişdir.[9] Bu kitabda Ə.Hüseynzadə Həsən İmanovun və Leviatovun yanlış fikirlərinə aydınlıq gətirərək yazır: "Mir Mehdi Xəzaninin əsərini ondan əvvəl yazmış Qarabağ tarixçilərindən Mirzə Adıgözəlbəy, Mirzə Camal və Mirzə Yusif Qarabağinin əsərləri ilə müqayisəli olaraq araşdırdığımız üçün bu dörd kitab arasında umümi bir yaxınlıq olduğu kimi, bunları bir-birindən ayıran xüsusi cəhətlərin də varlığını qeyd etməliyik".[10] Bundan əlavə Ə. Hüseyinzadə ilk dəfə olaraq Xəzaninin "Kitabi-Tarixi-Qarabağ" əsərinin giriş, müqəddimə və 24 fəslinin qısa izahını verməyə çalışmışdır.[11]

Prof. Nazim Axundov "Kitabi-Tarixi –Qarabağ" əsərindən daha geniş istifadə etmişdir. N.Axundov 1989-cu ildə nəşr etdirdiyi "Qarabağ salnamələri" adlı kitabında Qarabağ xanlığı haqqında yazılmış yeddi Qarabağnamədən istifadə edərək Qarabağ xanlığının təşəkkülü, siyasi tarixi, iqtisadi –ictimai və mədəni həyatı haqqında geniş məlumat vermişdir.[12] "Qarabağ salnamələri" kitabının "Qarabağ xanlığı barədə salnamələr və onların müəllifləri" bölməsində Mir Mehdi Xəzaninin həyatı və yaradıcılığı haqqında qısa məlumat verən və "Kitabi - Tarixi - Qarabağ" əsərindən geniş istifadə edən N.Axundov əsər haqqında yazır: " Xəzaninin "Qarabağ tarixi" əsərinin əlyazma şəklində belə geniş yayılmasına səbəb onun sadə Azərbaycan dilində yazılmasıdır".[13]

7 Əli Hüseynzadə. "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı". Bakı 1967. səh. 117.

8 Bax: AMEA Əlyazmalar institutu. Inventar B-2331 şifrəli nüsxə.

9 Əli Hüseynzadə. Göstərilən əsəri. səh. 113-134.

10 yenə orada. səh 117.

11 yenə orada. səh 118- 128.

12 Nazim Axundov. ."Qarabağ salnamələri" . Bakı 1989. səh. 17-18.

13 "Qarabağnamələr". İkinci kitab.(tərtib edən və çapa hazırlayan N.Axundov) Bakı 1991. səh. 94.

Bu istiqamətdə N.Axundovun gördüyü digər bir iş "Kitabi-Tarixi -Qarabağ" əsərinin ilk dəfə çap olunması oldu. N. Axundovun tərtibi ilə elmi heyət tərəfindən "Qarabağnamələr" silsiləsindən birinci kitab 1989-cu ildə nəşr olundu. Birinci kitaba Qarabağnamə müəlliflərindən Mirzə Adıgözəlbəyin, Mirzə Camal Cavanşirin və Əhməd bəy Cavanşirin əsərləri daxil edilmişdir. İkinci kitab isə 1991 – ci ildə işıq üzü gördü. Bu kitabda isə XIX və XX əsr salnaməçiləri Mirzə Yusif Qarabağinin, Mir Mehdi Xəzaninin, Rzaqulu bəy Mirzə Camal oğlunun, Mirzə Rəhim Fənanın, Baharlının, Həsən İxfa Əlizadənin, Həsənəli Qaradağinin Qarabağ haqqında tarixi, ədəbi-bədii, publisistik oçerkləri toplanmışdır. A. Bakıxanovun "Gülüstani-İrəm" əsərində Qarabağ xanlığının tarixi və onun başqa Azərbaycan xanlıqları ilə əlaqəsindən bəhs edən beşinci fəsli əlavə olaraq kitaba daxil edilmişdir. Bu kitabın nəşr olunması səbəbindən ilk dəfə olaraq Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ"əsərinin B-518 şifrəli əlyazması çap olundu. Bu haqda Nazim Axundov yazır: "Keyfiyyət etibarilə başqa nüsxələrdən fərqlənən B-518 şifrəli əlyazmanı transliterasiya üçün etibarlı saydığımızdan bu əlyazmanı çapa hazırlamağı lazım bildik. Fikrimizcə, bu nüsxədə müəllif tərəfindən düzəlişlər aparılmış və redaktə olunmuşdur."[14]

Beləliklə, "Kitabi-Tarixi-Qarabağ" əsrinin tədqiqi tarixinə nəzər saldıqda görürük ki, əsər yetərincə tədqiq edilməmişdir. Bu əsərdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və bu iddia nəticəsində üzləşdiyimiz Qarabağ problemində erməni iddialarının nə qədər əsassız olduğunu sübut edəcək yüzlərlə dəyərli məlumat vardır. Erməni tarixçilərinin iddialarının nə qədər əsassız olduğunu sübut etmək üçün kiçik bir misal göstərmək yerinə düşərdi. Üzdəniraq erməni tarixçisi Zori Balayanın "Ocaq" adlı kitabında onun sadəcə bir cümləsində olan iddialarına Mir Mehdi Xəzaninin dili ilə cavab verməyə çalışaq. Z.Balayan kitabının 42-ci səhifəsində qeyd edir: "Erməni məlikləri arasındakı ixtilafdan yararlanan köçəri qəbilənin başçısı Sarıcalı Pənah XVIII əsrin II yarısında Qarabağa soxularaq Şoş (Şuşa) qalasını öz iqamətgahına çevirmişdi"[15].

İndi isə Z. Balayanın bircə cümləsində olan səhvləri və əsassız iddaları hesablayaraq bu qaranlıq iddialara "Kitabi-Tarixi - Qarabağ" əsərinin nuru ilə aydınlıq gətirək:

1. Pənahəli məliklər arasında tam anlaşma olmamasından deyil, Nadir şahın ölümündən (1747-ci il) sonra şahlıq taxtı uğrunda gedən mübarizədə mərkəzi hakimiyyətin zəifləməsindən bəhrələnmişdi.[16]

2. Balayan tərəfindən "köçəri"adlandırılan Pənahəli bəyin əcdadları uzun illər nəsildən-nəsilə Qarabağda yaşamış, burada möhkəm mövqe sahibi olmuşlar"[17].

3. Pənahəli bəy Qarabağa soxulmamışdı, Nadir şahın yanında qısa müddət xidmət edəndən sonra bu vəzifəni ləyaqətinə sığışdırmadığı üçün vətəninə dönmüşdü[18].

---

14 yenə orada. səh. 94

15 З.Балаян. "Очаг" Изд. "Советакан грох", Ереван 1984. с.42

16 Qarabağnamələr. (tərtib edəni və çapa hazırlayanı professor Nazim Axundov) II cild, Bakı 1991, səh. 107.

17 Yenə orada, səh. 104 - 105

18 Yenə orada, səh. 106-107.

4. Pənahəli bəy Qarabağa XVIII əsrin II yarısında yox, hələ Nadir şah sağ ikən, yəni XVIII əsrin 40-cı illərində qayıtmışdı[19].

5. Pənahəli bəyə qədər Qarabağda heç bir "Şoş (?) qalası" olmayıb. Nadir şah öləndən sonra onun Qarabağdan Xorasana köçürdüyü azərbaycanlılar (Nadir şah onların Gəncə bəylərbəyilərinə rəğbət göstərmələrindən şübhələnirdi) vətənə qayıdaraq Qarabağdakı azərbaycanlı çoxluğuna söykənən Pənahəli bəyin fəaliyyət bazasını gücləndirirdilər. Nadiri əvəz etmiş Adil şah (Əliqulu xan) Pənahəli bəyə təklif etdi ki, ali şah hakimiyyətini bəyənsə, ona xan titulu verəcək. Bu sövdələşmədən heç nə itirmədiyi üçün Pənahəli bəy təklifi qəbul etdi. Lakin tezliklə Nadirin nəvəsi Şahrux Mirzə Adil şahı öldürüb taxt-tacı ələ keçirdi. Pənah xan iki od arasında qalmışdı: onu həm şah, həm də güclənmiş müstəqil Azərbaycan xanları hədələyirdilər və o, qısa bir müddətdə biri Bayatda (1748), o biri isə Tarnakütdə (1752) olmaqla iki qala tikdirdi, onların müdafiə imkanlarından razı qalmadığı üçün 50-ci illərin əvvəllərində yeni bir qala ucaltdırmağa başladı. Bu qala (əslində boş bir sahədə salınan yeni bir şəhər) Şuşa kəndinin yaxınlığında olduğu üçün əvvəllər banisinin şərəfinə "Pənahabad" adlandırılsa da, sonralar "Şuşa qalası" kimi məşhurlaşdı. Pənah xan yaxınlıqdakı yaşayış məntəqələrindən buraya kəndlilər, ustalar və bəylər köçürərək oranı xeyli əhalisi olan alınmaz qalaya döndərdi[20]. Sonralar Şuşa şəhəri təkcə Azərbaycanın deyil, bütün Zaqafqaziyanın ən önəmli mədəniyyət mərkzlərindən birinə çevrildi.

Beləliklə, bircə cümlədə beş səhv var. "Böyük Ermənistan" utopik ideyasından "ruhlanan" Balayanın ərazi iddiaları həm dövlət, həm respublika, həm etnos, həm elm, həm də əxlaq-etik sərhədlərini aşıb keçir.

2005 – ci ildə Kürəkçay müqaviləsinin 200 illiyinə həsr edilmiş "Кюрекчайский договор-200" kitabı nəşr edildi. Kitabda bir sıra tarixçi alimlərimizin Qarabağ xanlığı haqqında elmi məqalələri toplanmışdır. Bu məqalələr içində tarix elmləri doktoru, professor Şahin Fazil Fərzəlibəylinin "Mir Mehdi Xəzaninin "Kitabi – Tarixi – Qarabağ" əsəri Qarabağ xanlığının tarixi üçün əhəmiyyətli mənbə kimi" məqaləsi əsərin nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir. Məqalədə Ş. Fərzəlibəyli yazır: "Ermənilər mərhələ-mərhələ öz əzəli niyyətlərinə yetmək, Türkiyə, Azərbaycan, Gürcüstan və başqa ərazilərdəki torpaqları bu dövlətlərin qanuni varislərindən qopararaq üç dənizi əhatə edən "Böyük Ermənistan" adlı qondarma bir dövlət qurumu yaratmaq məqsədini gerçəkləşdirmək istəyir və bu həris qayə naminə min bir siyasi hoqqabazlıq edir, göz yaşları axıdır, yaltaqlanır, başdan-ayağa yalanlarla dolu kitab və məqalələr yazırlar. Bu istiqamətdə 2000-ci ildə nəşr edilmiş "Arsaxın xəzinəsi"adlı kitabda erməni tarixçiləri Azərbaycanın tarixi abidələrini özününküləşdirərək dünya ictimaiyyətini çaşdırırlar. Bununla əlaqədar azərbaycanlı alimlərə həqiqətləri üzə çıxartmaq və erməni iddialarını puç etmək üçün obyektiv olaraq Qarabağın tarixini yazmaq olduqca vacibdir ."[21]

[19] Yenə orada, səh. 106-107.

[20] Yenə orada, səh. 113-118.

[21] "Кюрекчайский договор-200" Баку – 2005. с.114.

Mir Mehdi Xəzaninin "Kitabi – Tarixi – Qarabağ" əsərinin əhəmiyyəti haqqında Ş.Fərzəlibəyli yazır: "Öz təxəllüsünü payız fəsli ilə əlaqləndirən və ömrünün qış mövsümünə yaxın qiymətli bir tarixi əsər yazan Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi - Qarabağ"əsəri Qarabağ xanlığının tarixinin araşdırılmasında olduqca əhəmiyyətli bir mənbədir."[22]

Bütün bunları nəzərə alaraq Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi-Qarabağ"əsərini araşdırmağı və onu müstəqil bir tədqiqat obyekti kimi tədqiq etməyi özümüzə borc bildik.

**ƏDƏBİYYAT**


- AMEA Əlyazmalar institutu. Inventar B-2331 şifrəli nüsxə.
- Axundov N. "Qarabağ salnamələri". Bakı 1989.
- Балаян З. "Очаг" Изд. "Советакан грох", Ереван 1984.
- Hüseynzadə Ə. "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı". Bakı 1967.
- Иманов Г. "Вопросы историографии Азербайджана". "Наука в АССР за 15 лет". Баку 1936.
- Источниковедение. Теоретические и методические проблемы, Москва 1969.
- "Кюрекчайский договор-200" Баку – 2005.
- Левиатов В.Н. "Очерки из истории Азербайджана в XVIII веке" Баку 1948.
- "Qarabağnamələr". Birinci kitab. (tərtib edən və çapa hazırlayan N. Axundov) Bakı 1989.
- "Qarabağnamələr". İkinci kitab.(tərtib edən və çapa hazırlayan N.Axundov) Bakı 1991.


[22] Yenə orada, səh. 114.